# *Tariyel ABBASLI -70*



Hörmətli, Tariyel müəllim! Sizi - alim, yazıçı-publisist dostumuzu 70 illik yubileyiniz münasibəti ilə təbrik edir, can sağlığı, yaradıcılıq uğurları arzulayırıq. Siz 1952 ci il fevral ayının 10 da anadan olmuş, 1959 cu ildə M.Qorki (indiki M.Mehdizadə) adına Cəbrayıl şəhər orta məktəbini bitirmişsiniz. 1970-1974 cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) filologiya fakültəsini başa vurmusunuz. Əmək fəaliyyətinə Cəbrayıl rayonunun Çullu , Yenikənd , Minbaşılı kənd məktəblərində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi başlamısınız.

1982 ci ilin oktyabr ayından Cəbrayıl rayon Tarix-Diyarşünaslıq muzeyində kiçik elmi işçi , fond müdiri, 1987 ci ildən 2021 ci ilin avqust ayına qədər həmin muzeyə rəhbərlik etmisiniz. Muzeydə çalışdığınız 39 il ərzində burada olan qiymətli, tarixi-etnoqrafik, dekorativ tətbiqi sənəd nümunələrinin toplanması, təbliği və qorunmasında fədakarlıq göstərmisiniz. Yeri gəlmişkən deyək ki, Cəbrayıl rayonu erməni işğalına məruz qalarkən rəhbərlik etdiyiniz muzeyin 17 min eksponatını işğaldan azad edərək Bakı şəhərinə gətirmiş , burada muzeyin fəaliyyətini bərpa etmisiniz. Məhz bu faktın özü sizin Azərbaycan dövləti, xalqı qarşısında , Azərbaycan mədəniyyətinin qorunması sahəsində ən böyük xidmətinizin bariz nümunəsidir.

Hörmətli Tariyel müəllim! Siz həm də yaradıcı biz ziyalı və məhsuldar alim kimi tanınırsınız. Hələ gənclik illərindən Azərbaycan aşıq poeziysının yaradıcısı Dirili Dədə Qurbaninin həyatı, dövrü və yaradıcılığı haqqında tədqiqatlarınızla mətbuat səhifələrində yazılar dərc etdirmiş, son nəticədə isə 2006 cı ildə "Qurbaninin poetik irsi" adlı dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almısınız.

Cəbrayıl rayonunun işğalından sonra 27 il əməkdaşı olduğunuz Azərbaycan Beynəlxalq Radiosunda (Az.TV) yüzlərlə elmi,bədii publisistik yazılar, verilişlər hazırlamısınız. Bu verilişlər içərisində "Zamanın sınağında", "Obalardan gələn səslər", "Bayatı axşamı", "Sənət haqqında söhbətlər" , " Dirili Qurbani məclisi" və digər əbədi- bədii veilişlər dinləyicilər tərəfindən həmişə razılıqla qarşılanmışdır.

Siz 2003 ildən Azərbaycan Yazıçılar Birliyinin, 1998-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvü kimi elmi fəaliyyətinizlə bərabər ədəbi fəaliyyətinizi davam etdirmiş, " Mingəçevir Leysanı", "Bənövşə" ədəbi dərgilərinin baş redaktor müavini "Əsgər ocağı" qəzetinin icraçı direktoru işləməklə ədəbi- bədii və publisistik fəaliyyətinizi də genişləndirmisiniz.

Bu illər ərzində nəşr etdirdiyiniz 15 dən çox kitabınız da bu sahədə fəaliyyətinizin ən önəmli göstəricisidir.

Bu əsərlər içərisində " Ömrün əzablı yolları" adlı romanınız sizin həm də istedadlı bir nasir olduğunuzu təsdiq edir. İkinci dünya müharibəsindən başlayıb Qarabağ savaşlarına qədərki bir dövrü əks etdirən bu əsər maraqlı sujet xəttinə malikdir.

Siz səmərəli elmi-ədəbi fəaliyyətinizin nəticəsi olaraq 2013 cü ildə "Prezident təqaüdünə", 10 a yaxın media mükafatlarına, o cümlədən Respublika Mədəniyyət Nazirliyinin, Cəbrayıl rayon İcra Hakimiyyətinin Fəxri Fərmanlarına layiq görülmüsünüz.

Hörmətli qələm dostumuz , Tariyel Abbasl, ömrünüzün bu müdrik çağlarında siz yenə də gəncliyə xas olan bir həvəslə yaradıcılığınızı davam etdirir, ortaya qoyduğumuz dəyərli əsərlərlə oxuculara unudulmaz anlar bəxş edirsiniz.

Sonda 70 illik yubileyiniz münasibəti ilə sizi bir daha təbrik edir , sizə möhkəm can sağlığı, könül xoşluğu, yaradıcılıq uğurları arzulayırıq

***Azərbaycan Yazıçılar Birliyi***